# Tələbə və magistrantların biliyinin yenidən qiymətləndirilməsi müraciətlərinə baxılması üçün münaqişə komissiyasının ƏSASNAMƏSİ

**1.** Bu "ƏSASNAMƏ" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura təhsil səviyyələrində tədrisin kredit sistemi ilə təşkili haqqında Qaydalar"ın və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin tələblərinə uyğun tərtib edilmişdir.

**2.** Tələbə və magistrantların biliyinin yenidən qiymətləndirilməsi üçün müraciət etmək hüququ vardır.

**3.** Tələbənin (magistrantın) biliyinin yenidən qiymətləndirilməsi və imtahan zamanı yarana biləcək nünaqışələrin aradan qaldırılması üçün rektorun əmri ilə imtahan sessiyası başlananadək tərkibi 5 (beş) nəfərdən az olmamaq şərti ilə Münaqişə (Apellyasiya) Komissiyası yaradılır. Ehtiyac yarandığı halda Münaqişə (Apellyasiya) Komissiyasına ilkin yoxlamaların nəticələrinə düzəliş etmək səlahiyyəti verilir.

**4.** Münaqişə (Apellyasiya) Komissiyasının sədrinə ayrı-ayrı fənnlər üzrə mütəxəssisləri (ekspertləri), tələbənin yazı işini yoxlayan müəllim istisna olmaqla, öz işinə cəlb etmək səlahiyyəti verilir.

**5.** Tələbə (magistrant) ona verilən qiymətlə razı olmadığı halda ,imtahanın nəticələri elan edildiyi gündən etibarən 2 (iki) iş günü müddətində Münaqişə (Apellyasiya) Komissiyasının sədrinin adına yazılmış ərizə ilə müraciət edir.

**6**. Eyni fəndən Münaqişə (Apellyasiya) Komissiyasına tələbə ancaq bir dəfə müraciət edə bilər.

**7.** İmtahanda 10 (on) baldan az bal toplayan tələbəyə (magistranta) Münaqişə (Apellyasiya) Komissiyasına müraciət etmək hüququ verilmir.

**8.** Yeddinci bənddə qeyd edilən məsələyə nəzarət etmək, hər bir sualın aşağı balla qiymətləndirilməsi haqqında yazı işini yoxlayan müəllimlərin qeydləri ilə tanış etmək və eyni zamanda ilkin mərhələdə tələbələrə Təhsil nazirliyinin mövcud Qaydalarına uyğun izahat işlərinin aparılması üçün ərizə ilə müraciət edən bütün tələbələrin ərizələri fakültə dekanı tərəfindən imzalandıqdan sonra Münaqişə (Apellyasiya) Komissiyasına təqdim olunmalıdır.

**9.** Münaqişə (Apellyasiya) Komissiyasının qərarı tələbənin qiymətində düzəliş etmək üçün əsas sayılır.

**10.** Münaqişə (Apellyasiya) Komissiyası tələbənin imtahan nəticələrinin yenidən yoxlanmasını təşkil edir və tələbənin qiymətində düzəliş aparılması zərurəti yarandığı halda müvafiq qərar qəbul edilir. Qəbul edilən qərar : ***“Düzəliş münaqişə komissiyasının qərarına əsasən aparılıb”*** sözləri və komissiya üzvlərinin imzaları ilə təsdiqlənir.

**11**. Münaqişə (Apellyasiya) Komissiyasının qərarına əsasən düzəliş edilən yazı işlərinə uyğun müvafiq fakültə dekanlıqlarından imtahan cədvəlləri alınaraq orada tələbənin qiymətində düzəliş aparılır. ***“Düzəliş münaqişə komissiyasının qərarına əsasən aparılıb”*** sözləri imtahan cədvəlində də qeyd edilməlidir.

**12.** Test üsulu ilə imtahan verən tələbələr imtahana ayrılan vaxtın 50%-dən çoxundan istifadə etməyən və tam qeyd olunmuş “İnformasiya Tədris Mərkəzi”nin rəhbəri tərəfindən təsdiq olunmuş müvafiq imtahan vərəqəsini təqdim etməyən tələbələrə MÜNAQIŞƏ komissiyasına müraciət etmək hüququ verilmir.